DÜNYA

# İran iyulda azı 71 nəfəri edam edib

4 dəqiqə öncə




Müharibənin əvvəlindən təhlükəsizlik və siyasi ittihamlarla 50-dən çox şəxs edam edilib.

İranda iyulda azı 71 nəfəri edam edilib. Onların arasında ilin əvvəlində kütləvi antihökumət etirazlarında iştirak etmiş altı nəfər də var. Məlumatı Norveçdə yerləşən "Iran Human Rights" (IHR) hüquq müdafiə təşkilatı yayıb.

Məlumata görə, ilin ilk yeddi ayında İranda qeydə alınan edamların sayı azı 444-ə çatıb. Yüzlərlə insanın hazırda ölüm cəzası ilə üz-üzə olduğu bildirilir.

Fevralın 28-də ABŞ və İsraillə müharibə başlayandan İranda hüquq müdafiə təşkilatlarının siyasi məhbus saydığı şəxslərin edamlarının sayı kəskin artıb. Onların sırasında etirazçılar, qadağan olunmuş qruplara üzv olduğu bildirilən, casusluqda təqsirli bilinənlər var.

Fəallara görə, edamların sayının artması hakimiyyətin iranlılar arasında qorxu yaratmaq, etirazların təkrarlanmasının qarşısını almaq cəhdidir.

**"İslam Respublikası ilə ABŞ və İsrail arasında gedən hərbi münaqişədən milli təhlükəsizlik bəhanəsi altında edamları artırmaq üçün istifadə olunacağından ciddi narahatıq"**, – IHR-in direktoru **Mahmud Əmiri-Müqəddəm** bildirib.

"Beynəlxalq ictimaiyyət İslam Respublikasının ölüm cəzasından istifadəsinə daha güclü və koordinasiyalı təzyiqlə cavab verməlidir", – o vurğulayıb.

5 avqust

## BMT İranda edamların və ölüm hökmlərinin artmasından narahatdır

BMT-nin İnsan hüquqları üzrə ali komissarı **Volker Türk** İranda martdan bəri edamların və ölüm hökmlərinin kəskin artmasından narahatlığını bildirib. O, hakimiyyəti bütün edamları dərhal dayandırmağa və ölüm hökmünün ləğvi yönündə addımlar atmağa çağırıb.

V.Türk avqustun 5-də bildirib ki, martın 19-dan bəri milli təhlükəsizlik ittihamları ilə azı 56 nəfər edam edilib. Onlardan 27-si bu ilin əvvəlində etiraz aksiyaları ilə bağlı mühakimə olunan şəxslərdir. O əlavə edib ki, 100-dən çox insan oxşar ittihamlarla edam olunmaq riski ilə üz-üzədir.

BMT rəsmisinin sözlərinə görə, İranda ədalətli məhkəmə araşdırmasının və hüquqi prosedurların davamlı şəkildə pozulması, işgəncə altında alınmış etiraflar, açıq və tələsik həyata keçirilən edamlar ciddi narahatlıq doğurur.

**"Ölüm hökmü yaşamaq hüququ ilə uzlaşmır və insan ləyaqəti ilə bir araya sığmır. Belə cəzanın müasir dünyamızda yeri yoxdur"**, - V.Türk vurğulayıb.




4 avqust

## İran İsrailə casusluqda günahlandırdığı iki nəfəri edam edib

İran İsrailə casusluqda günahlandırdığı daha iki nəfəri edam edib. Fevralın sonunda ABŞ və İsrail ilə müharibə başlayandan edam dalğası davam edir. Hüquq müdafiəçilərinin

fikrincə, bu edamların əksəriyyəti milli təhlükəsizliklə bağlı qeyri-müəyyən ittihamlar əsasında həyata keçirilir.

Məhkəmə hakimiyyətinə bağlı "Mizan" xəbər agentliyinin məlumatına görə, **Omid Behzad** və **Puriya Səfvət** avqustun 3-ü səhər saatlarında edam olunublar. Onların 2025-ci ilin iyunundakı 12 günlük müharibə və bu il fevralın 28-də başlayan münaqişə zamanı İsrailin "Mossad" kəşfiyyat xidmətinə köməklik göstərdiyi iddia olunur. İttihama əsasən, onlar hərbi və təhlükəsizlik obyektlərinin koordinatlarını, şəkillərini və digər məxfi məlumatları "Mossad" əməkdaşlarına, həmçinin bu xidmətlə əlaqəli rabitə kanallarına ötürüblər.

İran məhkəmə orqanlarının iddiasına görə, İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) xarici media qurumlarının fəaliyyətini və onlara göndərilən videoların parametrlərini təhlil edərək həmin şəxslərin izinə düşüb.

Rəsmi məlumata görə, Behzadın mobil telefonunda aparılan texniki araşdırmalar bu fəaliyyəti üzə çıxarıb və o, istintaq zamanı ittihamları etiraf edib. Lakin bu etirafın hansı şəraitdə alındığı bilinmir. Hüquq müdafiə təşkilatları uzun illərdir İran hakimiyyətini müttəhimlərdən məcburi etiraflar almaqda ittiham edir.

Fevralın 28-də ABŞ və İsraillə müharibə başlayandan bəri İranda hüquq müdafiəçilərinin siyasi məhbus saydığı şəxslərin edam halları kəskin artıb. Edam olunanlar arasında etirazçılar, qadağan olunmuş təşkilatlara üzvlükdə və casusluqda təqsirləndirilən şəxslər var.

Bəzi hüquq müdafiə təşkilatlarının məlumatına görə, müharibənin əvvəlindən təhlükəsizlik və siyasi ittihamlarla 50-dən çox şəxs edam edilib. Digər təşkilatlar isə bu rəqəmin daha yüksək olduğunu bildirirlər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur